*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır    13 fevral 2019-cu il    № 12 (2329)    Qiyməti 30 qəpik


## Ümummilli lider Heydər ƏLİYEV:

# Çox sevinirəm ki, indi milli şahinlərimiz var və sevinirəm ki, bizim şahinlərimiz Azərbaycanın səmasını daim qorumağa, Azərbaycanın müstəqilliyini qorumağa qadirdirlər



*Azərbaycanın dövlət müstəqilliyi bərpa edildikdən sonra müstəqil ordu quruculuğuna, o cümlədən digər qoşun növləri kimi Hərbi Hava Qüvvələrinin və Hava Hücumundan Müdafiə qoşunlarının da yaradılmasına, mövcud baza əsasında formalaşdırılmasına başlanıldı. İlk vaxtlar bu proses elmi əsaslarla aparılmadığından Silahlı Qüvvələri ordu kimi formalaşdırmaq mümkün olmamışdı. Xalqın təkidli tələblərindən sonra hakimiyyətə gələn böyük tarixi şəxsiyyət Heydər Əliyevin həyata keçirdiyi olduqca vacib islahatlar ordunun formalaşma prosesini, nizami ordu kimi formalaşmasını sürətləndirdi.*

Ulu Öndərin siyasi kursunu uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ordu quruculuğunu da dövlət üçün prioritet elan etdi və bu istiqamətdə olduqca böyük nailiyyətlər əldə edildi. Nizami ordu kimi formalaşdırılmış ordumuz indi daha dinamik inkişaf mərhələsindədir. Son vaxtlar həyata keçirilən irimiqyaslı islahatlar ordunun gücünü daha da artırdı, şəxsi heyətin mənəvi-psixoloji hazırlığını yüksəltdi. Bunun nəticəsidir ki, ölkə Prezidentinin qürurla dediyi kimi, Azərbaycan Ordusu dünyanın ən güclü orduları sırasındadır.

(Ardı 2-ci səhifədə)

## Qoşulmama Hərəkatına üzv ölkələrin Bakıda keçiriləcək Zirvə Görüşü ilə əlaqədar Təşkilat Komitəsi yaradılıb

*Prezident İlham Əliyev Qoşulmama Hərəkatına üzv ölkələrin dövlət və hökumət başçılarının XVIII Zirvə Görüşünün 2019-cu ildə Bakı şəhərində keçirilməsi üzrə Təşkilat Komitəsinin yaradılması və Azərbaycan Respublikasının 2019-2022-ci illərdə Hərəkata sədrliyi ilə bağlı tədbirlər haqqında Sərəncam imzalayıb.*

AZƏRTAC xəbər verir ki, Sərəncama əsasən, otuz üzvdən ibarət Təşkilat Komitəsinə sədr Prezident Administrasiyasının rəhbəri təyin edilib.

Təşkilat Komitəsinə Qoşulmama Hərəkatına üzv ölkələrin dövlət və hökumət başçılarının XVIII Zirvə Görüşünün keçirilməsi ilə bağlı işçi qrup yaratmaq və bir ay müddətində tədbirlər planı hazırlayıb Prezidentə təqdim etmək tapşırılıb.

Azərbaycan Respublikasının 2011-ci ildən üzv olduğu Qoşulmama Hərəkatı beynəlxalq münasibətlərin tənzimlənməsində mühüm rolu olan çoxtərəfli platformadır. 120 dövlətin bir araya gəldiyi Qoşulmama Hərəkatı Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyasından sonra dünya dövlətlərinin təmsil olunduğu ən böyük siyasi təsisatdır.

Əsas məqsədi beynəlxalq hüququn norma və prinsipləri əsasında dünyada sülhün, təhlükəsizliyin qorunmasına və tərəqqiyə töhfə vermək olan Qoşulmama Hərəkatı qlobal problemlərin həlli və müasir dövrün çağırışlarına cavab vermək baxımından bu gün xüsusi əhəmiyyət kəsb edir.

# Müdafiə naziri: Ali Baş Komandanın qarşımızda qoyduğu tapşırıqlar və tələblər gündəlik xidmətimizin bütün sahələrində əks olunmalıdır

*Fevralın 9-da Mərkəzi Komanda Məntəqəsində Müdafiə naziri general-polkovnik Zakir Həsənovun rəhbərliyi ilə xidməti müşavirə keçirilib.*





Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, Müdafiə nazirinin müavinləri, qoşun növləri komandanları, nazirliyin baş idarə, idarə və xidmət rəisləri, birlik komandirlərinin iştirakı ilə keçirilən müşavirəyə videobağlantı vasitəsilə birləşmə komandirləri və digər məsul zabitlər də cəlb olunub.

Müdafiə naziri yeni tədris dövründə qoşun növləri, birlik, birləşmə və hərbi hissələrdə döyüş hazırlığı üzrə məşqlərin müvafiq direktiv və təlimatlara uyğun olaraq daha da effektiv və keyfiyyətli təşkili, rəhbəredici sənədlərin dərindən öyrənilməsi, eləcə də peşəkarlığın artmasına yönəlmiş digər tədbirlərin keçirilməsi ilə bağlı fikirlərini müşavirə iştirakçılarının diqqətinə çatdırıb.

Müdafiə naziri Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin ordu quruculuğu ilə bağlı qarşımızda qoyduğu tapşırıqlar, o cümlədən torpaqlarımızın işğaldan azad edilməsi ilə əlaqədar səsləndirdiyi tövsiyə və tələblərin gündəlik fəaliyyətdə əks etdirilməsini tapşırıb.

Ali Baş Komandanın tapşırığına əsasən, 2019-cu ildə də Azərbaycan Ordusunda, xüsusilə cəbhəboyu zonada yerləşən hərbi hissələrdə şəxsi heyətin döyüş hazırlığının yüksəldilməsi və sosial-məişət şəraitinin yaxşılaşdırılması istiqamətində fəaliyyətin davam etdiriləcəyini bildirən general-polkovnik Zakir Həsənov bu sahədə yerinə yetirilən işlərin müasir tələblərə uyğun aparılması ilə əlaqədar cavabdeh vəzifəli şəxslərə müvafiq göstərişlər verib.

Müdafiə naziri döyüş hazırlığının daha keyfiyyətli təşkili, hərbi peşəkarlıq səviyyəsinin artırılması, islahatların davam etdirilməsi, ideoloji işin və mənəvi-psixoloji təminatın gücləndirilməsi və digər xidməti məsələlərin həlli ilə bağlı tapşırıqlar verib.

Müşavirənin yekununda Müdafiə naziri bütün səviyyələrdən olan komandir və rəis heyətinə düşmənin hər bir təxribatına adekvat cavab verməleri və onun fəaliyyətinin qarşısının qətiyyətlə alınması barədə əmr və tələblərini çatdırıb.

## Ümummilli lider Heydər ƏLİYEV:

# Çox sevinirəm ki, indi milli şahinlərimiz var və sevinirəm ki, bizim şahinlərimiz Azərbaycanın səmasını daim qorumağa, Azərbaycanın müstəqilliyini qorumağa qadirdirlər

**(Əvvəli 1-ci səhifədə)**



Müstəqilliyin ilk illərində Azərbaycanda döyüş təyyarələrini və helikopterləri idarə etməyə qadir olan kadrlar az idi, onları idarə etmək üçün sabiq SSRİ Silahlı Qüvvələrində xidmət edən pilotlar cəlb olunurdu. İndi Hərbi Hava Qüvvələri üçün kadrlar öz ölkəmizdə hazırlanır. Bu proses 1997-ci ildən uğurla həyata keçirilir. Vaxtilə Azərbaycan Ali Hərbi Təyyarəçilik Məktəbində təhsil alan kursantlar bu gün modern döyüş təyyarələrini, helikopterlərini məharətlə idarə edirlər. O zaman ümummilli lider Heydər Əliyev demişdi: "Çox sevinirəm ki, indi milli şahinlərimiz var və sevinirəm ki, bizim şahinlərimiz Azərbaycanın səmasını daim qorumağa, Azərbaycanın müstəqilliyini qorumağa qadirdirlər".

Son zamanlar Hərbi Hava Qüvvələrinin rolu dünya ordularında, bu sıradan Azərbaycan Ordusunda da xüsusilə artıb. Bu gün modern təyyarə və helikopterlərin, digər uçuş aparatlarının yaradılması, müasir rəqəmsal texnologiyaların sürətli inkişafı nəticəsində kəşfiyyat imkanlarının genişlənməsi, uzaqvuran və yüksək dəqiqliyə malik silahların silahlanmaya qəbul edilməsi orduların döyüş potensialını xeyli möhkəmləndirib. Bu proses Azərbaycan Ordusunda da uğurla aparılmaqdadır.

Zenit-raket komplekslərinin modernləşdirilməsi nəticəsində döyüş texnikasının səmərəliliyi və atəş imkanları artırılıb. Bu gün ən müasir zenit-raket kompleksləri ölkəmizin hava hücumundan müdafiə qabiliyyətinin möhkəmlənməsi baxımından böyük əhəmiyyət kəsb edir. Hazırda ordumuzun sərəncamında Hərbi Hava Qüvvələrinin modernləşdirilmiş döyüş texnikalarında rəqəmsal məlumat mübadiləsinin təmin edilməsi üçün yeni rabitə avadanlıqları da vardır.

Bu gün Azərbaycan ən qabaqcıl dünya ölkələrində olduğu kimi, ordu quruculuğuna bilavasitə təsir göstərən özünün süni peykinə malikdir. Bundan əlavə, Hərbi Hava Qüvvələrinin kəşfiyyat imkanlarını əhəmiyyətli dərəcədə artıran pilotsuz uçuş aparatları ilə təmin olunması mümkün hərbi əməliyyatlarda döyüş üstünlüyünü təmin etmək baxımından ordumuzun potensialını xeyli yüksəldib.

2014-cü ilin sentyabrından Azərbaycanla Türkiyə arasında ikitərəfli hərbi əməkdaşlıq planına əsasən, iki qardaş dövlətin Hərbi Hava Qüvvələrinin iştirakı ilə ildə iki dəfə olmaqla Azərbaycanda və Türkiyədə birgə təlimlər keçirilir. "TurAz Şahini" və "TurAz Qartalı" birgə təlimlərində hər iki ölkənin pilotları olduqca mürəkkəb pilotajlar həyata keçirirlər, döyüş ustalığını artırırlar. Bu isə bilavasitə ordunun gücünün artması deməkdir. Təlimlərdə türkiyəli pilotlar Azərbaycana məxsus qırıcı və hücum təyyarələrində, azərbaycanlı hərbi təyyarəçilər qardaş ölkənin qırıcı təyyarələrində uçuşlar keçirirlər. Azərbaycan və Türkiyə Silahlı Qüvvələri arasında təcrübə mübadiləsi həyata keçirmək, iki ölkənin Hərbi Hava Qüvvələrinin qarşılıqlı fəaliyyətinə nail olmaq baxımından bu təlimlər böyük əhəmiyyətə malikdir.

İrimiqyaslı təlimlər ərəfəsində cəbhə bölgəsinə səfər zamanı Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin ordumuz barədə dediyi sözləri Hərbi Hava Qüvvələrinin şəxsi heyətinə də şamil etmək olar: "Azərbaycan gündən-günə güclənir, möhkəmlənir. Bizim güclü potensialımız və güclü ordumuz var. Biz ordumuzla, əsgər və zabitlərimizlə, sizinlə - bax, burada düşmənlə üz-üzə dayanan oğullarımızla fəxr edirik".

Müdafiə naziri general-polkovnik Zakir Həsənovun rəhbərliyi ilə keçirilən irimiqyaslı təlimlərdə təlim tapşırıqlarının yerinə yetirilməsinə hərbi təyyarə və helikopterlər də cəlb olunur. Ən müasir döyüş vasitələrilə təmin edilmiş Hərbi Hava Qüvvələrinin və digər qoşun növlərinin birgə fəaliyyətinin, qarşılıqlı əlaqəsinin planlaşdırılması və təşkili, eyni zamanda müdafiə və hücum əməliyyatlarının aparılması üçün müasir silah sistemlərinin tətbiqi manevrlərdə qarşıya qoyulmuş başlıca vəzifələrin uğurla yerinə yetirilməsini təmin edir.

Azərbaycan Gəncləri Gününə həsr olunmuş respublika toplantısında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev gənclərin vətənpərvərliyindən qürur duyduğunu bildirərək dedi: "Bizim gənclərimiz hərbi qələbələrimizi şərtləndirir. Aprel döyüşləri bizim şanlı tarixi qələbəmizdir və bu əməliyyatlarda iştirak edənlərin mütləq əksəriyyəti gənclərdir. Biz bu əməliyyat nəticəsində uzun illər ərzində işğal altında qalan torpaqlarımızı işğaldan azad etdik. O torpaqlarda - Lələtəpədə, Füzuli, Cəbrayıl, Ağdərə rayonlarının dağlarında Azərbaycan bayrağını ucaltdıq. Bu, böyük tarixi qələbədir". Bu böyük tarixi qələbənin qazanılmasında Hərbi Hava Qüvvələrimizin də müstəsna rolu oldu...

Yüksək döyüş qabiliyyətinə malik olan Azərbaycan Ordusunun şəxsi heyətinin döyüş əzmi, qələbə ruhu yüksəkdir. Bu gün hər bir hərbi qulluqçunun hərbi xidməti Hərbi anda, dövlətə və dövlətçiliyə sədaqətlə bir sırada Müdafiə naziri general-polkovnik Zakir Həsənovun dediyi bir fikrə də əsaslanır: "Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin ordu quruculuğu ilə bağlı qarşımızda qoyduğu tapşırıqlar, o cümlədən torpaqlarımızın işğaldan azad edilməsi ilə əlaqədar səsləndirdiyi tövsiyə və tələblər gündəlik xidmətimizin bütün sahələrində əks olunmalıdır".

**"Azərbaycan Ordusu"**

*Ön xətdən reportaj*

# “Böyük Qələbə sevincini yaşatmaq üçün əmr gözləyirik”



İllərdən bəri düşmən əsirliyində olan 20 faiz ərazilərimizin işğaldan azad edilməsi müasir dövrdə Azərbaycan gəncliyini narahat edən ən başlıca məsələdir. Bu gün ordumuzun böyük əksəriyyətini gənclər təşkil edir. Vətənimiz uğrunda hər an mübarizəyə hazır olan bu böyük qüvvə nəyə qadir olduğunu aprel döyüşlərində, Günnüt zəfərində sübuta yetirdi. Gün gələcək ki, bu zəfərlərin sədaları bütün qədim Azərbaycan torpaqlarında, Azərbaycan əsgərinin addım səslərini eşitmək həsrətində olan yurd yerlərimizdən gələcək, işğal altındakı torpaqlarımız tezliklə öz əzəli sahiblərinə qaytarılacaq. İşğalçı qonşularımız bilməlidir ki, bir qarış torpağımızın onların əlində qalmasına yol verilməyəcək. Azad olunmuş kənd və ərazilər işğal olunmuş torpaqlarımızın bir hissəsidir. İnanırıq ki, tez bir zamanda digər tarixi torpaqlarımız da geri qaytarılacaq və tarixi ədalət bərpa olunacaqdır.

Bu döyüşlərdə ordumuzun qələbə qazanması, bir vaxtlar işğal altında olan ərazilərdə xalqımızın yurd-yuvasına qovuşması bütün gənclərimiz kimi, hərbi qulluqçularımızda da böyük ruh yüksəkliyi yaradıb. Ömrünün qiymətli bir hissəsini - gəncliyini ordu sıralarında keçirən hərbçilər işğalda olan digər ərazilərimizin də tezliklə azad edilməsinin fərqindədirlər. Cəbhə xəttindəki hərbi bölmələrimizin birində söhbətləşdiyimiz döyüşçülər istənilən an Vətənimizin ərazi bütövlüyü uğrunda savaşa qatılmağa və yeni qələbələr qazanmağa hazır olduqlarını bildirdilər. Vətən müdafiəçilərinin qətiyyətli sözləri, inamlı xidmətləri, döyüş ruhları bu zəfərlərin davamının olacağına inamı daha da artırır. Hələ də düşmən tapdağında olan digər qədim kəndlərimizin hər biri ağrılı-acılı bir tarix yaşadır özündə. Sonu qələbə olacaq bir tarixi isə bu gün Azərbaycan əsgəri yazır. Qarış-qarış, addım-addım, kəndbəkənd düşməni dövlət sərhədinə çəkilməyə məcbur edir.

Ön xətdəyik. Güvənc yerimiz, qürurumuz, azadlığımızın qarantı olan oğullarımızla görüşməyin sevincini yaşayırıq. Onlarla həmsöhbət olub, torpaqlarımızın keşiyində daim ayıq-sayıq dayandıqlarının şahidi oluruq.



Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin məzunu olan leytenant Sərvər Allahverdiyev bir neçə ildir ki, ön xətdə xidmət edir. Vətən sevgisinin onun peşə seçimində xüsusi əhəmiyyət kəsb etdiyini bildirən zabitə görə, hava şəraitinin yaratdığı çətinliklərə baxmayaraq cəbhə bölgəsində xidmət etməkdən qürur hissi keçirir. "Cəbhə bölgəsi dedikdə, o dəqiqə çətinlikləri olan xüsusi bir məkan adamın nəzərində canlanır. Əslində, belə ekstremal şərait zabitin bir döyüşçü kimi formalaşmasına zəmin yaradır. Hiss edəndə ki, çətin bir şəraitdəsən, istər-istəməz bu çətinlikləri dəf etməyə özündə təpər tapırsan. Burada yaranan komandir-əsgər münasibətlərinin özəyində isə döyüşçü həmrəyliyi, silah qardaşlığı, ailə bağları dayanır."

Onunla söhbətimizi davam etdirmək üçün bölmənin dayaq məntəqəsindən irəli mövqelərə gedirik. Zabit deyir ki, hər gün bu yolları gedib-gəlir, döyüş növbətçiliyinin keçirilməsinə nəzarət edir. Onun sözlərinə görə, bu çətin və təhlükəli mövqelərdə xidmət etmək, doğrudan da, hər kəsdən cəsarətli və qətiyyətli olmağı tələb edir. "Tabeliyində olan əsgərlərə bu keyfiyyətləri necə aşılayırsan?", - sualına gənc komandir cavab verərək bildirir ki, əgər əsgərin köksü Vətən sevgisi ilə döyünürsə, onu heç nə sarsıda bilməz. "Əsgər də Vətənimizin bir övladıdır, vətəndaş olaraq öz məsuliyyətini dərk edir və yaxşı bilir ki, bu gün ona torpaqlarımızın düşmənlərdən qorunması kimi ən müqəddəs bir vəzifə etibar edilib. Və əsgər də fərqindədir ki, bu vəzifə qarşısında məsuliyyətini dərindən başa düşsün və qarşısına qoyulan hər tapşırığın öhdəsindən bacarıqla gəlsin".

- Müasir dövrdə gənclərimiz üçün cəmiyyətdə örnək olan hadisələr vardır, - deyə zabit söhbətinə davam edir. - Elə götürək aprel döyüşlərini, Günnüt zəfərini. Bir neçə gün ərzində nə qədər döyüşçümüz fədakarlıq nümayiş etdirdi və dövlətimizin rəhbərliyi tərəfindən onların xidmətləri yetərincə qiymətləndirildi. Bu hadisələr cəmiyyətdə geniş əks-səda doğurdu, gənc nəslə vətənpərvərlik hissləri aşıladı. Azərbaycan məktəblisi bu gün parta arxasında sabahın əsgəri kimi yetişir, bir sözlə, səngərə aparan yol şagird partasından başlanır. Mübariz də, Fərid də, Samid də, Elnur da ... dünənin nümunəvi şagirdi olublar. Bu gün isə belə qəhrəmanlarımızın adları dillər əzbəridir.

Yol adamı söhbətə çəkir, düşüncələrin dilə gəlir, olub-keçənləri xatırlayırsan. 2016-cı ilin aprelində düşmən təxribatının qarşısının alınması zamanı qəhrəmancasına şəhid olan Rasim Məmmədovun anası Bəsti xanımın sözlərini xatırlayıram. "Döyüşdə hər şey ola bilər. Kişi cəsur olar, canından da keçər, qanından da, amma torpağından keçməz. Vətəni qorumaq lazımdır. Oğlum da, yoldaşım da bu yolu seçdilər. Peşman deyiləm. Atası da, balası da Vətəni sevdi, torpağı sevdi, qanından, canından keçdi, Vətəni ailəsindən üstün tutdu". Qəhrəman bir oğulun anasının dediyi bu sözlər torpaqlarımızın hər qarışı uğrunda canından, qanından keçməyə hazır oğulların hər zaman olduğunu sübut edir. Mərdliyin, Vətən sevgisinin, vətənpərvərliyin genimizə hopduğunu göstərir. Bu sözlər sübutdur ki, igidlik, qəhrəmanlıq nəsildən, qanımızdan gələn xüsusiyyətdir. Bizdə nə qəhrəmanlar bitər, nə də qəhrəmanlıq dastanları.

"Döyüş növbəsində olduğum zaman heç bir hadisə baş verməyib". Əsgər İldırım Xaliqzadənin amiranə səsi məni düşüncələrimdən ayırdı. Əsgər olmağın, düşmənlə təmas xəttində xidmət etməyin kifayət qədər məsuliyyətli və müqəddəs vəzifə hesab edildiyini hamımız yaxşı bilirik. Bəs İldırım bu vacib vəzifənin öhdəsindən gələ bilirmi?

- Xidmətə gələn gündən məsuliyyətli olmağı, üzərimə düşən vəzifələrin öhdəsindən bacarıqla gəlməyi özümə söz vermişəm. Cəbhə xəttində xidmət etmək arzum olub. Çətin təbii şəraitdə və təhlükəli mövqelərdə döyüş növbətçiliyini həyata keçirmək son dərəcə məsuliyyətli olmağı tələb edir. Üzərimə düşən məsuliyyətin ağırlığını yaxşı dərk edirəm. Döyüş növbəsində sayıqlığımı itirmədən xidmət aparıram. Düşmən mövqelərini bir an belə nəzarətsiz qoymuram. Bilirəm ki, düşmən xaindir, hər an təxribat törətməyə məqam gözləyir. Düzdür, düşmənə daim nəzarət edirik, lakin onlardan da qorxmuruq, istənilən təxribatın qarşısını almağa, Ali Baş Komandanımızın “İrəli” komandası ilə torpaqlarımızı yağılardan təmizləməyə hər an hazırıq.



Əsgər Eltun Şahməmmədov da torpaqlarımızı göz bəbəyi kimi qoruyanlardandır. Valideynləri doğma Kəlbəcər rayonundan didərgin düşüblər. Atası Elman kişi də Qarabağ müharibəsi veteranıdır, doğma yurd-yuvalarını düşmənlərdən qorumaq üçün Kəlbəcər könüllüləri dəstəsində vuruşub. Eltun da başqa yaşıdları kimi yurd-yuva həsrətindədir, düşmənə olan intiqam hissi ona da mübarizlik, döyüşkənlik ruhu aşılayıb. Əsgərin sözlərinə görə, onlarla yaşlı qohumu doğma ev-eşiklərinin həsrəti ilə dünyasını dəyişib. "Düşmən üzərində qələbə qazanmağa hər an hazırıq, çünki ürəyimiz intiqam hissi ilə döyünür. Yağılar doğma, əzəli yurd yerlərimizi işğal ediblər, nə qədər günahsız həmvətənimiz bu işğalçılıq siyasətinin qurbanı olub. Hərbi xidmətimi Böyük Qələbənin əsgəri kimi başa vurmaq ən böyük arzumdur".

Dinlədikcə qürurlanıram, fərəhdən sinəm qabarır. Necə böyük sevincdir azərbaycanlıyam demək, dövlətinlə, ordunla fəxr etmək. Əbəs yerə deməyiblər, torpaq qanla qarışanda Vətən olur. Biz bu şücaəti, qəhrəmanlığı tarix boyu göstərmişik. Qədimdən azadlıq, müstəqillik uğrunda savaşlar aparmış, heç zaman döyüş meydanından qaçmamışıq. Ərazi bütövlüyümüz uğrunda şəhidlər vermişik, zəfərlər qazanmışıq. Bizimlə cəng edən hər bir düşmənimiz yaxşı bilir ki, Azərbaycan əsgəri silahsız belə çox təhlükəlidir. Çünki onun ən güclü silahı Vətən sevgisidir. Onun torpaqlarına göz diksən, bayrağına sataşsan, namusuna əl uzatsan, qarşısında ən güclü texnika ilə dayansan belə səni məhv edər.

Əsgərlərdən Hüseyn Məmmədli, Fərmayıl Həsənov, Ədalət Zəkiyev və başqaları da Vətənimizin ərazi bütövlüyünün təmin edilməsi uğrunda mübarizəyə hazır olduqlarını bildirirlər. Onlar qətiyyətlə vurğulayırlar ki, Ali Baş Komandanın döyüş əmrinə hər an hazırdırlar. "Xidmətimiz uğurla davam edir. Düşməni daim nəzarətdə saxlayır, torpaqlarımızın keşiyində inamla dayanırıq. Həm döyüş növbətçiliyini yüksək səviyyədə aparır, həm də döyüş hazırlığımızın artırılması üçün təlim-məşqlərdə həvəslə iştirak edirik. Xalqımızın güvənci, etimadı və ölkə rəhbərliyi tərəfindən göstərilən diqqət və qayğı mənəvi-psixoloji hazırlığımıza müsbət təsir edir, bizi daha da ruhlandırır. Ölkəmizə Böyük Qələbə sevincini yaşatmaq üçün əmr gözləyirik".

Bu gün ordumuzun bütün bölmələrində xidmət edən əsgərlərin hər biri məsuliyyətli və intizamlı, ən başlıcası isə vətənpərvər gənclərdir. Döyüş əmri verilən an hər biri üzərinə düşən vəzifəni yerinə yetirməyə qadirdir.

**Leytenant**
**Mahmud MÖHBALIYEV,**
**"Azərbaycan Ordusu"**

# Azərbaycan Ordusunda andiçmə mərasimi keçirildi

*Fevralın 10-da Müdafiə Nazirliyinin tabeliyində olan hərbi hissə və birləşmələrdə gənc əsgərlərin andiçmə mərasimi keçirildi. Əlahiddə Ümumqoşun Ordu, hərbi birliklər, Hərbi Hava Qüvvələri, Hərbi Dəniz Qüvvələri, Raket və Artilleriya Qoşunları, eləcə də digər təminat hərbi hissələrində təşkil edilmiş mərasimlərdə ümummilli liderimiz Heydər Əliyevin və torpaqlarımızın ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edildi, Dövlət himni ifa edildi. Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənovun şəxsi heyətə təbrik məktubu oxundu. Sonra gənc əsgərlər təntənəli surətdə Hərbi andı qəbul etdilər. Andiçmə mərasimlərində hərbi hissələrin komandanlığı, şəhid ailələrinin üzvləri, yerli icra orqanları, ictimaiyyət nümayəndələri, veteranlar və əsgər valideynləri iştirak etdilər.*





Muxtariyyətinin 95-ci ilini qeyd edən Naxçıvan güclü müdafiə qüdrətinə malikdir. Muxtariyyət günündə Naxçıvan Qarnizonu qoşunlarında Hərbi andiçmə mərasimlərinin bayram əhvalında keçməsi bunu bir daha təsdiq edir.

Gənc əsgərlər komandirlərinin və valideynlərinin şahidliyi ilə Vətənə sədaqət andı içərək Vətənimizin müdafiəsində və sərhədlərimizin mühafizəsində ayıq-sayıq dayanacaqlarına söz verdilər.

Tədbirdə çıxış edənlər gənc əsgərləri Hərbi andı qəbul etmələri münasibətilə təbrik etdilər.

Çıxışların ardından general-mayor Teymur Eyyubov general-leytenant Kərəm Mustafayevin təbrikini şəxsi heyətə çatdırdı. Bildirdi ki, beş minillik tarixə malik olan Naxçıvan muxtariyyətinin 95-ci ildönümündə uğurla inkişaf edir, yeni-yeni nailiyyətlər qazanır. Ötən il Əlahiddə Ümumqoşun Ordunun hərb tariximizə qızıl hərflərlə yazdığı Günnüt zəfəri muxtar respublikamızın iqtisadi inkişafından və müdafiə qüdrətindən xəbər verir. Beşinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin doqquzuncu sessiyasında da qeyd olunduğu kimi, Naxçıvan Əlahiddə Ümumqoşun Ordu 1992-ci ildə işğal edilmiş Günnüt kəndi və ətraf əraziləri, ümumilikdə, 11 min hektar torpaq sahəsinə nəzarəti qaytarıb, ön xətdə və dayaq məntəqələrində etibarlı müdafiə sistemi yaradıb. Təbii ki, bütün bunlar da ümummilli lider Heydər Əliyev yoluna sədaqətin, muxtar respublikamızın hərtərəfli inkişafının və xalq-ordu birliyinin təntənəsidir.

Təbrik oxunduqdan sonra şəxsi heyətin tribunanın önündən təntənəli keçidi oldu.

**Leytenant
Nəriman NƏCƏFOV,
"N" hərbi hissəsi**

Havanın soyuq olmasına baxmayaraq gənc əsgərlərin Hərbi andı qəbul etmələrinə həsr olunmuş mərasim vaxtında baş tutdu.

Şəxsi heyəti və qonaqları salamlayan polkovnik-leytenant Siyavuş Mustafayev gənc əsgərləri Hərbi andı qəbul etmələri münasibətilə təbrik etdi. "Bu gün bütün hərbi hissə və birləşmələrdə Hərbi andiçmə mərasimi təntənəli surətdə keçirilir. Bu bayram günündə ordu həyatına qədəm qoyan hərbi hissəmizin gənc əsgərləri Azərbaycan xalqına, dövlətinə sədaqətlə xidmət edəcəklərinə, Vətən uğrunda döyüşlərə hər zaman hazır olacaqlarına, bu yolda canını və qanını əsirgəməyəcəklərinə and içdilər. İnanırıq ki, Hərbi anda həmişə sadiq qalaraq, şərəfli xidmətlərilə Vətənə, xalqa başucalığı gətirəcək, Azərbaycan əsgəri adını qürurla daşımağa qadir olacaqlar".

- Əziz gənc əsgərlər, bu gün həyatınızın ən əlamətdar günlərindən birini yaşayırsınız. Bu günü siz həmişə xoş təəssüratlarla xatırlayacaqsınız. Vətənə əsgər olmaq, onun torpaqlarının keşiyində dayanmaq olduqca şərəfli bir işdir. Əminəm ki, hər biriniz bu şərəfli vəzifənin öhdəsindən layiqincə gələcəksiniz. Siz çox xoşbəxt gənclərsiniz ki, əsası ümummilli liderimiz Heydər Əliyev tərəfindən qoyulan, bu gün Ali Baş Komandan cənab İlham Əliyev tərəfindən davam etdirilən güclü ordunun sıralarında xidmət edəcəksiniz. Qarşısına qoyulan hər hansı tapşırığı yüksək səviyyədə yerinə yetirmək iqtidarına malik olan Azərbaycan Ordusu bu gün dünyada ən müasir standartlara cavab verə biləcək səviyyədə formalaşıb. Müasir hərb elminin tələblərinə cavab verən ordumuz gündən-günə daha da möhkəmlənir, döyüş qabiliyyətini artırır. Aprel döyüşləri və Günnüt zəfəri də bunun bariz nümunəsidir".



Gənc əsgərlər adından çıxış edən əsgər Miryasin Seyidsoy bildirdi ki, Vətənin keşiyində hər zaman ayıq-sayıq duracaq, bunun üçün komandirlərin öyrətdiyi biliklərə yiyələnməklə içdikləri andın tələblərini vaxtında yerinə yetirəcəklər. Gənc əsgər dedi ki, torpaqlarımızın 20 faizi erməni işğalçılarının nəzarəti altındadır. Belə bir vaxtda üzərimizə daha böyük məsuliyyət düşür. Torpaqlarımızın azadlığı uğrunda canımızdan belə keçməyə hər an hazır olmalıyıq.

Əsgər atası Məhəmməd Cəfərov çıxış edərək əlamətdar gün münasibətilə şəxsi heyəti təbrik etdi. Gələcək xidmətlərində onlara uğurlar arzuladı.

Andiçmə mərasimi şəxsi heyətin təntənəli marşla tribunanın önündən keçməsi ilə başa çatdı.

**Baş leytenant
Orxan HÜSEYNLİ,
"Azərbaycan Ordusu"**

Soyuq bir qış səhəridir. "N" hərbi hissənin nəzarət-buraxılış məntəqəsində qələbəlik var. İnsanların gözlərində sevinc, fərəh və qürur hissi duyulur. Bu günü illərlə gözləyən valideynlər daha çox fərəhlidirlər. Zabit Fəxrəddin Əhmədov bildirdi ki, hərbi hissə xalqımızın ümummilli lideri, əbədiyaşar komandan Heydər Əliyevin xeyir-duası ilə həyata vəsiqə alıb. "Yarandığı gündən Vətənimizin ərazi bütövlüyü, müstəqilliyi uğrunda döyüşlərə atılan şəxsi heyət şərəfli döyüş yolu keçmişdir. Vətənə, xalqa sədaqətlə xidmət etmiş mərd oğulların xidmətləri dövlətimiz tərəfindən yüksək qiymətləndirilmişdir. Onlar yüksək fəxri adlara, orden və medallara layiq görülmüşlər. Ulu Öndərin ideyalarına həmişə sadiq qalan şəxsi heyət bu gün də qarşıya qoyulan döyüş tapşırıqlarını müvəffəqiyyətlə yerinə yetirir."

Polkovnik İntiqam Mirzəyev çıxışında ölkəmizdə ordu quruculuğu sahəsində həyata keçirilən genişmiqyaslı tədbirlərdən bəhs etdi. Bildirdi ki, son illər Prezident, Ali Baş Komandan cənab İlham Əliyevin böyük diqqət və qayğısı sayəsində yeni-yeni nailiyyətlərə, uğurlara imza atılıb. "Ordumuz inkişaf etmiş ölkələrin orduları səviyyəsinə yüksəlib. Qürurla deyə bilərik ki, ordumuz işğal altında olan Vətən torpaqlarını düşmənlərdən azad etməyə tam qadirdir. Bu gün Hərbi andı qəbul edən mərd, cəsarətli, qorxmaz oğullar da etibarlı Vətən müdafiəçiləri kimi torpaqlarımızın xilaskarları olacaqlar."

Əsgər valideynləri adından çıxış edən Nəsibə İskəndərova oğlu İbrahimin əsgərlər sırasında olmasından böyük qürur hissi keçirdiyini bildirdi. Qeyd etdi ki, Vətənə, xalqa sədaqət andı içən övladlarımız xalqımızın Mübariz, Çingiz, Fərid, Samid kimi qəhrəmanlarının layiqli davamçıları olmaqla, üçrəngli bayrağımızı Xankəndidə, Kəlbəcərdə, Laçında, Ağdamda, Şuşada və digər torpaqlarımızda da dalğalandıracaqlar.

Gənc əsgər İnşallah Məmmədov onlara göstərilən etimadı doğruldacaqlarını, Vətənə, xalqa layiq müsəlləh əsgər olacaqlarını bildirdi. Görkəmli ədəbiyyatşünas alim, böyük yazıçı Mircəlal Paşayevin adını daşıyan 39 saylı məktəbin şagirdləri Vətənə, orduya həsr olunmuş şeirlər söylədilər. Hərbi qulluqçular mətin addımlarla tribunanın önündən keçdilər. Mərasim əsgər yeməkxanasında Gəncə Qarnizonu Zabitlər Evinin yaradıcı kollektivinin təşkil etdiyi konsert proqramı ilə başa çatdı.

**Mübariz MUSAYEV,
"Azərbaycan Ordusu"**

(Ardı 5-ci səhifədə)

# Azərbaycan Ordusunda andiçmə mərasimi keçirildi



(Əvvəli 4-cü səhifədə)

"N" hərbi hissəsində təntənəli andiçmə mərasimi keçirildi. Tədbiri giriş sözü ilə açan polkovnik-leytenant Rəşid Tinayev bildirdi ki, əsası Ümummilli Lider tərəfindən qoyulan Azərbaycan Ordusu ölməz liderin siyasi kursunun layiqli davamçısı, ölkə Prezidenti, Ali Baş Komandan İlham Əliyevin diqqət və qayğısı nəticəsində daha da inkişaf edərək, regionun ən güclü ordusuna çevrilib. "Azərbaycan Ordusu bu gün bayram əhval-ruhiyyəsindədir. Ordumuz sıralarını Vətəni müdafiə etməyə və xalqı qarşısında vətəndaşlıq borcunu layiqincə yerinə yetirməyə hazır olan oğullarla möhkəmləndirir. Hər bir gənc üçün, sözsüz ki, hərbi xidmət keçmə dövrü həm ciddi imtahan, həm də əsl yaddaqalan həyati hadisədir. Gənc əsgərləri və onların valideynlərini Hərbi andiçmə günü münasibətilə hərbi hissəmizin zabit heyəti və öz adımdan təbrik edir, şəxsi heyətə xidmətlərində uğurlar arzulayıram".

Polkovnik Mehman Kərimov çıxış edərək Hərbi andı qəbul edən əsgərləri və onların valideynlərini təbrik etdi. "Əziz valideynlər, övladlarınızın Hərbi and içməsi münasibəti ilə hamınızı təbrik edir, onları Vətənə səda-



qətli oğul kimi tərbiyə etdiyinizə görə sizə öz minnətdarlığımızı bildiririk. Artıq övladlarınız bizlərə əmanətdir. Onlar Vətənimizin müdafiəçisi kimi müqəddəs vəzifəni yerinə yetirəcəklər."

Əsgər Altun Əhmədov gənc əsgərlər adından silahdaşlarını və valideynləri təbrik etdi:

- Bu gün bizim həyatımızda ən əlamətdar günlərdən biridir. Vətənə sədaqət andı içərək, ayıq-sayıq xidmət aparacağımıza, hərbi və dövlət sirrini qoruyacağımıza söz verdik. Bu and hər birimiz üçün pozulmaz qanundur. Söz veririk ki, hərbi xidmətdə məsuliyyətli, nizam-intizamlı olacaq, öyrədilən hərbi biliklərə dərindən yiyələnmək üçün var qüvvəmizlə çalışacağıq. Bu gün biz Mübarizlərin, Fəridlərin, Raqufların və müstəqilliyimiz, ərazi bütövlüyümüz uğrunda şəhid olan minlərlə qardaş və bacılarımızın qəhrəmanlıq nümunələrindən örnək götürərək, Vətən qarşısında övladlıq borcumuzu layiqincə yerinə yetirəcəyik.

Valideynlər adından çıxış edən əsgər nənəsi Nigar Həsənova nəvəsinin timsalında Hərbi andı qəbul etmiş bütün gəncləri təbrik edərək, müqəddəs vəzifələrində uğurlar arzuladı.

**Leytenant**
**Mahmud MÖHBALIYEV,**
**"Azərbaycan Ordusu"**

Hərbi Dəniz Qüvvələrinin "N" hərbi hissəsində də gənc matrosların andiçmə mərasimi keçirildi.

Andiçmə mərasimində çıxış edən 2-ci dərəcəli kapitan İlqar Yusifov bildirdi ki, bu gün Azərbaycan Ordusunda əlamətdar bir gündür. "Ordumuzun bütün qoşun növlərində olduğu kimi, hərbi hissəmizdə də bayram təntənəsi hökm sürür. Bu təntənənin əsasında hərbi xidmətə yeni çağırılmış gənc matroslarımız dayanır. Əlamətdar tarixi gündə gənc matroslar hərbi hissəmizin tam hüquqlu matrosları sıralarına daxil oldular. Hər bir matros Hərbi andın məsuliyyətini dərindən dərk etməli və içdiyi anda sadiq olmalıdır. Hərbi hissələrdə Hərbi andı qəbul edən gənc matrosların xidmət dövründə üzərilərinə düşəcək vəzifələri yüksək səviyyədə yerinə yetirmələri üçün hər cür şərait yaradılıb. Bunun müqabilində isə onlardan yalnız nümunəvi xidmət etmək, hərb elminin sirlərinə dərindən yiyələnmək, mürəkkəb döyüş texnikasını mükəmməl səviyyədə mənimsəmək tələb olunur. And içən gənc matroslar güclü Azərbaycan Ordusunda xidmət etdiyi üçün öyünməli, hərbi hissəmizin adının daim birincilər sırasında olmasına çalışmalıdırlar."

Mayor Eldar Nurəhmədov müstəqil respublikamızın varlığında ordumuzun mühüm rol oynadığını vurğuladı. "Respublikamızın suverenliyini, Vətənimizin bütövlüyünü təmin etmək hər bir hərbi qulluqçunun müqəddəs borcudur. Ordumuzda xidmət edən hər bir gənc onun güclənməsi, inkişaf etməsi və torpaqlarımızın azad olunması üçün öz üzərinə düşən vəzifələrin öhdəsindən layiqincə gəlməyə çalışmalıdır."

Leytenant Telman Bayramov dedi ki, hər bir Azərbaycan oğlunun həyatında ən şərəfli anlar onun hərbi xidmətdə olduğu, Vətənin keşiyində durduğu anlardır. "Bu gün Azərbaycan xalqının oğulları Hərbi andı qəbul etməklə "Vətəni qoruyan, Vətənin keşiyində duran" qəhrəmanlardan biri olurlar. Yaşadığımız dövrdə biz hərbi dənizçilərin üzərinə düşən yük və məsuliyyət çox böyükdür. Xəzər dənizi hövzəsinin təhlükəsizliyini təmin etməkdə, onun qorunmasında bizimlə çiyin-çiyinə xidmət edəcək gənc matroslara uğurlar arzulayıram."

Valideynlər adından çıxış edən Fərman Hüseynov bildirdi ki, bu gün onların hər birinin yaddaşında ən fərəhli günlərdən biri kimi qalacaq. "Vətən anlayışının nə demək olduğunu dərk edən hər bir azərbaycanlının bir amalı var: hərbi mundir geyinərək Vətən uğrunda savaşmaq, torpaqlarımızı işğaldan azad etmək. Vətənin müstəqilliyini, suverenliyini və ərazi bütövlüyünü qorumaq sizin üzərinizə düşür. İnanırıq ki, matroslarımız hərbi xidmətlərini ləyaqətlə davam etdirəcəklər. Əminik ki, qısa müddətdə ordumuz şanlı səhifələr yazacaq."

Gənc matros Emil Qurbanov bu günün onlar üçün əlamətdar olduğunu söylədi. "Bu gün bizim həyatımızda ən əlamətdar günlərdən biridir. Biz gənc matroslar Hərbi andı qəbul etməklə müstəqil Azərbaycan Respublikasının ordu sıralarına daxil olub, Vətənimiz Azərbaycana, onun xalqına sadiq olacağımıza təntənəli surətdə and içdik. Ümummilli lider Heydər Əliyevin qurucusu və memarı olduğu müasir Azərbaycan Ordusu bu gün dünya miqyasında güclü ordular sırasındadır. Bizlər də ordumuzun qüdrətlənməsi və inkişafı naminə səylərimizi səfərbər edəcək, Xəzər dənizinin Azərbaycan Respublikasına məxsus sularını və dəniz sərhədlərimizi göz bəbəyimiz kimi qoruyacağıq."

Andiçmə mərasimi şəxsi heyətin tribuna önündən təntənəli keçidi ilə başa çatdı. Sonra qonaqlar yaradılan yaşayış və məişət şəraiti ilə yaxından tanış oldular, əsgər yataqxanasına və yeməkxanasına baş çəkdilər.

**Leytenant**
**Samir HÜSEYNOV,**
**"Azərbaycan Ordusu"**

"N" hərbi hissəsində gənc əsgərlərin andiçmə mərasimi keçirildi. Mərasimdə iştirak edən polkovnik Münasib Babayev Azərbaycan Ordusunda yeni xidmətə başlayan əsgərlərimizi andiçmə günü münasibəti ilə təbrik etdi.

"Sizdən əvvəl də Mübariz, Fərid, Raquf, Samid kimi oğullarımız bu müqəddəs formanı geyinib, Hərbi andı içib, Vətənimizin müstəqilliyi üçün canlarını fəda ediblər", - deyə zabit çıxışına davam etdi. - İndi isə bu vəzifənin öhdəsindən layiqincə gəlmək sizlərin üzərinə düşür. Bu gün burada si-



zin kimi mərd, cəsur, qorxmaz oğullarımızın sıralarımıza qatılmasıyla qürur duyuram. Hər birimiz fəxr edirik ki, müasir müstəqil Azərbaycan Ordusunun zabitləri, gizirləri və əsgərləriyik. Əsası ümummilli liderimiz Heydər Əliyev tərəfindən qoyulan müstəqil dövlətimiz Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi altında uğurla addımlayır. Aprel döyüşləri də təsdiqlədi ki, bu gün Azərbaycan Ordusu dünya miqyasında güclü ordular sırasındadır. Bütün dünyaya bir daha sübut olundu ki, bu gün dövlətimiz işğal altında olan torpaqlarımızı azad etməyə qadirdir. Sizlər də xalqımıza Böyük Qələbə sevincini yaşatmaq üçün əlinizdən gələni əsirgəməməlisiniz. Hər birinizə bu müqəddəs yolda uğurlar arzulayıram.

Polkovnik-leytenant Vüsət Xanıyev gənc əsgərlərə Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına ciddi əməl etməyi, Hərbi andın və nizamnamələrin tələblərini yerinə yetirməyi, sayıq, igid və intizamlı olmağı, hərbi texnikaların, silahların sirlərinə dərindən yiyələnməyi və Vətən torpaqlarının azadlığı uğrunda mübarizədə düşmənə qarşı amansız olmağı tövsiyə etdi.

"Bu gün biz gənc əsgərlərin həyatında ən əlamətdar və məsuliyyətli günlərdən biridir", - deyə gənc əsgər Namiq Qasımov bildirdi. - Vətənə sədaqət andı içən hər bir silahdaşım üzərinə düşən məsuliyyəti yaxşı dərk edir. Bildirmək istəyirəm ki, düşmən tapdağında olan torpaqlarımızın azad edilməsi hər birimizin qarşısında duran vəzifələrdən biridir. Bu hamımızın şərəf və ləyaqət işidir. Tezliklə bu məqsədə çatmaq üçün xidmətimizi düzgün təşkil edəcək, valideynlərimizin, komandirlərimizin etimadını doğruldacağıq.

Əsgər valideynlərindən Abbas Orucov bildirdi ki, bu gün həyatında ən xoşbəxt günlərdən biridir. "Əminliklə deyə bilərəm ki, mənim kimi hər bir əsgər atası oğlunun Vətən qarşısında sədaqət andını içdiyi günü səbirsizliklə gözləyir. Bu xoşbəxt anlar heç vaxt yaddaşımdan silinməyəcək. Oğlum Muradla qürur duyuram. Bir anlıq olaraq xidmət illərimi xatırladım. Çox sevinirəm ki, Murad müasir standartlara cavab verən ordumuzun əsgəridir. Oğlumun simasında bütün əsgərlərimizə xidmətlərində nizam-intizamlı olmağı, komandirlərin əmr və tapşırıqlarını dəqiq və vaxtında yerinə yetirməyi tövsiyə edirəm. Hər an Ali Baş Komandan İlham Əliyevin döyüş əmri ilə xalqımıza Böyük Qələbə sevincini yaşatmağa hazır olsunlar".

**Baş leytenant**
**Ruslan HƏSƏNZADƏ,**
**"Azərbaycan Ordusu"**

AZƏRBAYCAN ORDUSU

Ordu və cəmiyyət

# “Sənət taleyimə Həzi Aslanovu yaşatmaq düşüb”

*Rubrikamızın qonağı Akademik Milli Dram Teatrının aktyoru, respublikamızın Xalq artisti, iki dəfə Sovet İttifaqı Qəhrəmanı, tank qoşunları qvardiya general-mayoru Həzi Aslanov rolunun mahir ifaçısı Ramiz Novruzdur.*



**- Ramiz müəllim, sizi ordu ruhlu, sənətkar kimi tanıyırıq. Bu ruh, bu bağlılıq haradan yaranıb sizdə?**

- Xalqımız tarixən orduya bağlı olub. Bu əsrlərin ənənəsidir ki, biz onu nəsil-nəsil yaşadırıq. Hələ orta məktəb illərində Mehdi Hüseynzadənin, Həzi Aslanovun müharibədə göstərdiyi əfsanəvi qəhrəmanlıqları barədə çox eşidirdik. Digər yaşıdlarım kimi mən də belə qəhrəman olmaq istəyirdim. "Uzaq sahillərdə", "Axırıncı aşırım", "Yeddi oğul istərəm" kimi filmlər bizə vətənpərvərlik hissləri aşılayırdı. Xoşbəxt sənətkarlardanam ki, böyük sərkərdəmiz Həzi Aslanovun obrazını canlandırmışam. Mənim də sənət taleyimə Həzi Aslanovu yaşatmaq düşüb.

**- Xalqımız hər zaman ordusunun yanında olub və ona güvənib. Bu fikrə münasibətiniz...**

- Orduda xidmət edən hər bir zabit və əsgər Azərbaycan xalqının övladıdır. Hətta el şənliklərində və məclislərində iştirak edən əsgər gördükdə təbriklərimizdə mütləq qeyd edirik ki, burada bir əsgər övladımız əyləşib. Əgər o hərbi formanı geyinənə qədər öz valideyninin övladı idisə, hərbi formanı geyinəndən sonra hər birimizin övladıdır. Bu gün qürur duyulası ordumuz var. Bu gün o orduda vətənsevər, torpaqsevər oğullar xidmət edir. Biz onların qəhrəmanlığını, igidliyini aprel döyüşlərində bir daha gördük. Əmim nəvəsi Biləsuvarın Səmədabad kəndindən Fərahim Novruzov da aprel döyüşləri zamanı şücaət göstərərək şəhid olub. Digər əmimin nəvəsi 1992-1993-cü illərdə Qubadlı uğrunda gedən döyüşlərdə şəhid olmuşdu. Aprel döyüşləri xalqın ordusuna inamını daha da gücləndirdi. Xalqımız inanır ki, torpaqlarımızı ordumuz tezliklə azad edəcək. Bu güvənci xalqımıza verən onun əzəmətli ordusu və Ali Baş Komandanıdır.

Bir neçə teatr mövsümünü cəbhə bölgələrində açmışıq. Biz ordumuzla daim əlaqə saxlayırıq. Mən dəfələrlə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində kursantlarla görüşdə iştirak etmişəm. Onlar bizim doğmalarımızdır. Yenə deyirəm, xalqımızın orduya doğma münasibəti, orduya bağlılığı, əsgəri öz övladı bilməsi bunlar tarixi kökdən gələn amillərdir. Bu amillər dəyişən deyil.

**- Hansı rolunuz insanların yaddaşında əbədi iz salıb?**

- "Qorxma mən səninləyəm", "Nizami" və digər filmlərə çəkilmişdim. Həmin rollarım o qədər də yaddaqalan olmamışdı.

Sənətdə bəxtim onda gətirib ki, ilk teatr rolum görkəmli şair və dramaturq Nəriman Həsənzadənin "Nəriman" poemasında general Əlağa Şıxlinski, kinoda isə ilk rolum general Həzi Aslanov olub. Hesab edirəm ki, Həzi Aslanov obrazı insanların yaddaşında iz buraxa bilib.

**- Necə oldu ki, Həzi Aslanov roluna çəkildiniz?**

- Burada bir təsadüf də var, qanunauyğunluq da. Kinostudiyaya dublyaja çağırmışdılar. Bir dostum mənə dedi ki, Həzi Aslanov haqqında film çəkilir, rollar çoxdur, siz də gəlin. Dublyajdan çıxanda bu söz yadıma düşdü. Düşündüm ki, kinostudiyaya həmişə gələn deyiləm. Gəlmişkən elə bir şəkil də çəkdirim.

Bir həftə sonra məni kinostudiyaya çağırdılar. Gördüm, filmin ssenari müəllifi Ramiz Fətəliyev və rejissor Rasim İsmayılov mənim şəkillərimə baxırlar. Ramiz müəllim şəkillərə baxa-baxa bildirdi ki, Hamlet Xanızadə məsləhət edib ki, Ramiz Novruzov çox istedadlı aktyordur, onu da yoxlayın. Sınağa iyirmi aktyor çəkildik. Sonda beş-altı aktyor qaldıq. Çəkilişlərdə hiss edirdim ki, rejissorun gözü artıq məni tutub.

**- Dediyiniz kimi, burada bir qanunauyğunluq da var. Biz qəhrəmanı yalnız şəkillərindən tanıyırıq. Filmdə sizi görəndə elə bilirdik ki, Həzi Aslanovun özüdür. Hərəkətlərinizdə, danışıqlarınızda, səsinizin tonunda da hərbçi xarakteri aydın seçilir. Mənə elə gəlir ki, Həzi Aslanovun özü ilə söhbət edirəm...**

- Çox sağ olun. Bunu çoxları deyir. Həzi Aslanov rolu bu dərəcədə inandırıcı alınıbsa, mənim üçün bundan böyük sevinc nə ola bilər? Yolda gedərkən kimsə ayaq saxlayıb "Həzi Aslanov rolunda oynayan aktyordur" deyəndə sanki dünyanı mənə bağışlayırlar.

**- Siz filmə çəkiləndə cəmi 35 il yaşamış Həzi Aslanovdan xeyli gənc idiniz. Bu rolun məsuliyyəti sizi qorxudurdumu?**

- Generalın roluna təsdiq olunmağım məni nə qədər sevindirirdisə, məsuliyyəti bir o qədər də qorxudurdu. Axı, mən ümumiləşdirilmiş bir şəxsin rolunu oynamırdım. Tarixi bir sərkərdənin rolunu oynayırdım. Bir də ki, filmin çəkildiyi ötən əsrin 80-ci illərinin ortalarında onu tanıyanların əksəriyyəti - həyat yoldaşı, oğlanları, bacı-qardaşları, döyüş yoldaşları sağ idilər. Odur ki, aktyordan hər ştrixdə reallıq, inandırmaq bacarığı kimi əsas amillər tələb olunurdu. Ssenari müəllifi də, rejissor da qərarlaşdırmışdılar ki, elə film çəkək, təkcə Azərbaycan, Rusiya yox, bütün dünya bəyənsin və görsün ki, bir azərbaycanlı Sovet dövlətində öz xalqını necə layiqincə təmsil edib. O vaxt filmə ümumittifaq təqdimatı oldu. Belə təqdimatlar nadir hallarda olurdu. 14 respublika baxıb rəy deməliydi. Film bəzi xarici dövlətlərdə də nümayiş olunmuşdu. Çox qəribədir ki, ən çox məktubu Almaniyadan alırdım. 1985-ci ildə müharibə mövzusunda çəkilən ən yaxşı filmlərdən sayıldı.

**- Maneələrlə üzləşirdinizmi?**

- Maneələr ümumi idi. Filmi çəkəndə bizə erməni millətindən olan Aslanyan soyadlı bir məsləhətçi göndərdilər. O dövrdə bizi "qardaş" xalqlar adlandırsalar da, bu qondarma qardaşlıq idi. Erməni tarix boyu bizə düşmən gözü ilə baxıb. Generalın ömür yolu o qədər də hamar olmayıb. Azərbaycanlı, müsəlman övladının iki dəfə Sovet İttifaqı Qəhrəmanı adına layiq görülməsi, general-mayor rütbəsinə qalxması, şübhəsiz ki, çoxlarında paxıllıq, qısqanclıq hissləri oyadırdı. Həzi Aslanov sonuncu dəfə Baqramyanın briqadasında olub. Təkcə bu faktın üstündən sükutla keçdilər. O ki qaldı Aslanyana, bu barədə Azərbaycanın ədəbiyyat nümayəndələrinə xəbər verdim. Onlar da bu adamın dəyişdirilməsi üçün özlərini oda-közə vurdular. Mümkün olmadı. Yalnız ona nail olduq ki, adı titrlərdə ötəri göründü.

**- Çəkiliş zamanı yəqin ki, yaddaqalan məqamlar da olub...**

- Belə məqamlar çox olurdu. Mənim üçün ən maraqlısı Həzi Aslanovun sürücü-mexaniki olmuş general-mayor Kurkovun söhbətləri idi. Kurkov filmin baş məsləhətçisiydi. Həzinin xarakterik xüsusiyyətlərindən tez-tez söhbət açırdı. Onu da deyim ki, Moskva kinematoqrafçıları inanmırdı ki, arxa cəbhə respublikası ön cəbhədən yaxşı film çəkə bilər. Bu inamsızlıq vardı.

**- Filmdə çəkilməyən hissələrdən təəssüflə xatırladığınız varmı?**

- Belə bir yer vardı ki, əsgərlə şəfqət bacısı söhbət edir. Qar sinədəndir. Yalnız bir cığır var. Həzi onlara baxır, onları utandırmamaq üçün əli ilə yol açır. Bu hissəni kəsdilər. Bu, azərbaycanlı kişiyə xas xüsusiyyətdir. Bu, mütləq saxlanılmalıydı. Birini də xatırlamaq istəyirəm. Final səhnəsində tankın üstündə dayanıb Azərbaycan dilində "Getdik" deyəndə arxadan səs gəlir. Həzi dönüb baxır, amma heç kim yoxdur. Yenə səs, yenə dönüb baxır.

**- Bu, xəyali səs idi?**

- Əslində, xəyali səs idi. Amma arxada kimsə var. O hissə yadınızdadırsa, dönüb bir də baxır. Və sonra "Hazırlaşın" əmrini verir. Bu anda gözləri önündən ata-anası, həyat yoldaşı, oğlanları, uşaqlığı, general Mehmandarovla görüşü, cəbhədə olan əsgərlər, döyüş dostları gəlib keçir. Hamı ona baxır. Hamı yay paltarındadır. Özünü itirən kimi olur. Sonra əmr edir, "Getdik e". Bura kimi çox proseslər vardı, onlar çəkilmədi. Hitlerçilərin təmas xəttinə xeyli qalmış komanda verə-verə gedəndə birdən sol tərəfdən - öz tərəfimizdən atəş açılır. Həmin döyüşdə ağır yaralanır...

**- Nə yaxşı ki, qəhrəmanın ölüm səhnəsi filmdə yer alma-yıb. Həzi Aslanov tamaşaçılar üçün əbədi sağ qalır...**

- Ölümü barədə müxtəlif versiyalar vardı. Sovet dövrüydü. Bu versiyalar sovet hökumətini heç də maraqlandırmırdı.

**- Filmin Moskvada da təqdimatı oldumu?**

- Moskvada "Bakı" kinoteatrında filmin təqdimatı olmuşdu. Onda respublikamızdan rəhbər şəxs kimi Qurban Xəlilov gəlmişdi. Yadımdadır, o dedi ki, bu filmə Heydər Əliyev də baxıb və çox bəyənib. Artıq 1984-cü ildə Ulu Öndər Moskvada çalışırdı. Qələbənin 40 illiyi ərəfəsində Həzi Aslanov barədə filmin araya-ərsəyə gəlməsi məhz Ulu Öndərin adı ilə bağlıdır. Çünki o, respublikanın rəhbəri olarkən bütün sahələrdə olduğu kimi, kino sahəsinin də inkişaf perspektivini öncədən imzalamışdı. Bu onun uzaqgörənliyinin nəticəsiydi.

**- Film nəinki ölkəmizdə, hətta keçmiş ittifaq məkanında da özünə əbədiyaşarlıq qazanıb.**

- Təkcə bir faktı deyim. Rusiyada bir internet xəbər portalı var. Adını dəqiq bilmirəm. Həmin xəbər portalı müharibə mövzusunda çəkilən filmləri saytlarına yerləşdirib. Ötən bir il ərzində ən çox izlənilən film Həzi Aslanov haqqında çəkilən bizim filmimiz olub. Bu filmi yeddi milyon insan izləyib.

**- Qarabağ müharibəsinin Həzi Aslanovu haqqında heç düşünürsünüzmü?**

- Əlbəttə, mənim ən böyük arzumdur ki, belə bir film çəkilsin. Yəqin ki, torpaqlarımızın azadlığı uğrunda ordumuzun Kursk döyüşü kimi bir döyüşündən sonra reallaşacaq bu arzu. Ordumuzun Həzi Aslanovu da o zaman həmin döyüşlərin qəhrəmanı olacaq. Bu xalq Həzini, Mehdini yetiribsə, Qarabağ müharibəsinin də Həzisi mütləq olacaq.

**- Ramiz müəllim, aktyor olmaqdan başqa həm də qələm adamısınız. Ən maraqlısı odur ki, yazdıqlarınız əsasən müharibə, vətənpərvərlik mövzusundadır. "At ilinin birinci ayı" pyesiniz 20 Yanvar faciəsindən bəhs edir...**

- Bu pyesim Gəncə Dram Teatrında uzun zaman oynanıldı. Bilirsiniz, mövzunu zaman özü verir. Heç zaman yazı xətrinə yazmıram. Mövzu məni ağrıdanda, dincliyimi alanda yazıram. Ürəyimi kağızlara boşaldanda elə bilirəm, dərdimi kiməsə danışdım. Akademik Milli Dram Teatrının bu gün də repertuarında olan "Hələ sevirəm dəməmişdilər" pyesimdə Qarabağ müharibəsində şəhidlik zirvəsinə ucalan gənclərimizin yarımçıq qalmış ömürlərindən bəhs olunur. Bu pyes cəbhə bölgəsində yerləşən rayonlarda - Beyləqanda, Füzulidə hərbçilərimiz qarşısında dəfələrlə oynanılıb.

**- Ordumuzun əsgər və zabitlərinə arzu və istəkləriniz...**

- Tezliklə torpaqlarımızı düşməndən azad edib, Şuşa qalasının ən uca zirvəsinə Azərbaycan bayrağını sancsınlar. Qələbə günündə qalib əsgərlərimizlə böyük sərkərdəmiz Həzi Aslanovun abidəsi önündə görüşək.

**- Maraqlı müsahibəyə görə çox sağ olun.**

**Müsahibəni apardı:
Lalə HÜSEYNOVA,
"Azərbaycan Ordusu"**

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## Xocalı soyqırımının ildönümü ilə əlaqədar Azərbaycan Ordusunda silsilə tədbirlər keçiriləcək

Xocalı soyqırımının iyirmi yeddinci ildönümü ilə əlaqədar Müdafiə naziri general-polkovnik Zakir Həsənovun tapşırığına əsasən Azərbaycan Ordusunda silsilə tədbirlər keçiriləcək.

Əlahiddə Ümumqoşun Ordu, birlik, birləşmə, hərbi hissə və xüsusi təyinatlı təhsil müəssisələrində Xocalı soyqırımı ilə bağlı "dəyirmi masa"ların, konfrans, toplantı və xüsusi məşğələlərin, kitab, foto və rəsm sərgisinin təşkili, Həzi Aslanov adına Mərkəzi, eləcə də Gəncə Qarnizonu Zabitlər evləri kollektivlərinin iştirakı ilə faciəyə həsr olunan ədəbi-bədii kompozisiya və tamaşaların, sənədli və bədii filmlərin nümayiş etdirilməsi nəzərdə tutulub.

Tədbirlərdə Xocalı soyqırımı qurbanlarının ailə üzvləri, hadisələrin iştirakçıları ilə şəxsi heyətin görüşlərinin təşkili, həmçinin Vətənimizin azadlığı, müstəqilliyi və ərazi bütövlüyü uğrunda həyatlarını qurban verənlərin xatirəsinə ucaldılmış abidələrin ziyarət olunması planlaşdırılıb.

Bundan əlavə, şəxsi heyət Bakı şəhərinin Xətai rayonunda, Goranboy rayon mərkəzində və Ağcakənd qəsəbəsində, eləcə də respublikanın digər şəhər və rayonlarında Xocalı soyqırımı qurbanlarının xatirəsinə ucaldılmış abidələri ziyarət edəcəkdir.

Fevralın 26-da saat 17.00-da Müdafiə Nazirliyinin tabeliyində olan bütün birlik, birləşmə, hərbi hissə, idarə, təşkilat və xüsusi təyinatlı təhsil müəssisələrində Xocalı soyqırımı qurbanlarının xatirəsi bir dəqiqəlik sükutla yad ediləcək.

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

*12 fevral 2019-cu il.*

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini 21 dəfə pozub.

Ermənistan Respublikası Noyemberyan rayonunun Voskepar kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərdən Qazax rayonunun Kəmərli və Quşçu Ayrım kəndlərində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonunun Zamanlı kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Göyarx, Yarımca, Ağdam rayonunun Baş Qərvənd, Şirvanlı, Sarıcalı, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Aşağı Veysəlli və Horadiz kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər və Füzuli rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

# Naxçıvan Qarnizonu qoşunlarında şəxsi heyətlə iş üzrə komandir müavinləri ilə təlim-metodiki toplantı keçirilib




*Naxçıvan Qarnizonu qoşunlarında şəxsi heyətlə iş üzrə komandir müavinləri ilə təlim-metodiki toplantı keçirilib.*

Təlim-metodiki toplantı hərbi qulluqçuların mənəvi-psixoloji hazırlığının yüksəldilməsi işində şəxsi heyətlə iş üzrə zabitlərin bilik və bacarıqlarının təkmilləşdirilməsi, ixtisas hazırlığı səviyyəsinin yoxlanılması məqsədilə təşkil edilib. Toplantıda nəzəri məşğələlərə üstünlük verilərək şəxsi heyətlə iş üzrə komandir müavinlərinin peşəkarlıqlarının artırılmasına, tabelikdə olanların fərdi-psixoloji xüsusiyyətlərinin öyrənilməsi işinə xüsusi diqqət yetirilib.

Muxtar respublikanın Hərbi Prokurorluğunun, Dövlət Təhlükəsizliyi Xidmətinin, Dini Qurumlarla İş üzrə Dövlət Agentliyinin, Naxçıvan Müəllimlər İnstitutunun və Naxçıvan Qarnizonu Təhqiqat Xidmətinin toplantıda iştirak edən nümayəndələri müxtəlif mövzularda çıxışlar ediblər. Əlahiddə Ümumqoşun Ordunun Təlim-Tədris Mərkəzində keçirilən toplantı zamanı bölmələrdə ictimai-siyasi hazırlıq dərslərinin keçirilməsi üzrə göstərici dərslər və hərbi vətənpərvərlik mövzusunda filmlər nümayiş etdirilib. Şəxsi heyətlə iş üzrə zabitlərdən ixtisas hazırlığından məqbullar götürülüb.

Naxçıvan Qarnizonu qoşunlarında şəxsi heyətlə iş üzrə komandir müavinləri ilə üç gün davam edən təlim-metodiki toplantının yekununda zabitlərin ixtisas hazırlığı və tabelikdə olanları idarəetmə bacarıqları yüksək qiymətləndirilib.

**Leytenant
Nəriman NƏCƏFOV,
“N” hərbi hissəsi,
foto
əsgər
Turqut KƏRİMZADƏNİNDİR**

*Hərb tariximizdən*

# Cümhuriyyət Ordusunun Hərbi Hava Qüvvələri haqqında

Mehman SÜLEYMANOV, tarix elmləri doktoru, ehtiyatda olan polkovnik



Azərbaycan Xalq Cümhuriyyətinin Hərbi Nazirliyinin rəhbərliyi ordu quruculuğu sahəsində fəaliyyətə başladığı andan müxtəlif qoşun növlərinin mütənasib inkişafına ciddi diqqət yetirirdi. Obyektiv çətinliklərin olmasına baxmayaraq hərbi aviasiyanın yaradılması ordu quruculuğunun mühüm istiqamətlərindən biri kimi qiymətləndirilirdi. Lakin mövcud olan xarici müdaxilə bu sahədə bir sıra problemləri ortaya çıxarmışdı. 1918-ci ilin noyabrında müttəfiq dövlətlər adından Azərbaycana gəlmiş olan ingilis hərbi qüvvələri komandanlığı Azərbaycanda az sayda mövcud olan hidrotəyyarələri hərbi gəmilərlə birlikdə öz nəzarəti altına aldı. Sonradan bu komandanlıq tərəfindən Xəzərdəki hərbi gəmilər Denikin qüvvələrinə təhvil verildi və az-çox mövcud olan aviasiya texnikasından Azərbaycanda heç nə qalmamışdı.

Milli hərbi hava qüvvələrinin yaradılması üçün Hərbi Nazirliyin rəhbərliyi ilk növbədə milli kadrların hazırlanmasının həllinə nail olmaq istəyirdi. Azərbaycanda o zaman bu ixtisas üzrə kadrlar hazırlayan hərbi təhsil müəssisəsi yox idi. Belə bir məktəb Tiflisdə var idi. Ona görə Gürcüstandakı hərbi aviasiya məktəbində azərbaycanlı kadrların hazırlanması imkanlarının araşdırılmasına başlandı. Cümhuriyyətin Hərbi naziri Səməd bəy Mehmandarov şəxsən özü bu işlə məşğul olurdu və 1919-cu il yanvarın 22-də Azərbaycanın Gürcüstandakı diplomatik nümayəndəsi Məmməd Yusif Cəfərova məktub yazaraq ondan Tiflisdəki aviasiya məktəbində azərbaycanlı hərbçilərin təhsil ala bilməsinin mümkünlüyünün öyrənməsini xahiş etdi.

Bu məsələnin həlli ilə bağlı əlverişli imkan 1919-cu il iyunun 16-da Azərbaycanla Gürcüstan arasında hərbi sazişin imzalanmasından sonra yarandı. Bu sazişə müvafiq olaraq iki dövlət arasında hərbi-texniki əməkdaşlıq haqqında sənəd də imzalandı. Bu sənədə uyğun olaraq Gürcüstan tərəfi hərbi-texniki əməkdaşlıqla bərabər, hərbi kadrlar hazırlığı sahəsində də Azərbaycana yardım göstərməyi öz üzərinə götürürdü. Həmin razılaşmanın nəticəsi kimi bir sıra hərbi ixtisaslara yiyələnmək üçün Azərbaycandan Gürcüstana bir qrup zabit və əsgər ezam olundu. Onların arasında hərbi təyyarəçi ixtisasına yiyələnməli olan zabitlər də var idi. O cümlədən, kapitan Firudin bəy Qacar, praporşik Əlihüseyn Dadaşov, praporşik Teymur Mustafayev, praporşik Gəncinski, Həsənzadə, Qaraşarov və başqaları.

Qeyd etmək lazımdır ki, Hərbi Nazirliyin rəhbərliyi Tiflis hərbi aviasiya məktəbinə göndərilənlərin çox ciddi şəkildə seçilməsi barəsində göstəriş vermişdi. Tiflisə göndərilənlər orada üç ay təhsil almalı idilər. Həmin şəxslər geri qayıtdıqdan sonra Azərbaycanın ilk hərbi aviasiya dəstəsinin əsasını təşkil etməli idilər.

Cümhuriyyət Ordusunun aviasiya dəstəsinin ştatı 1919-cu il sentyabrın 14-dən qüvvəyə minmiş hesab edildi. Bu dəstənin rəisi vəzifəsinə podporuçik Teymur xan Əfşar təyin edildi. Dəstənin ştatında 5 zabit, 4 məmur, 54 nizami əsgər və 4 qeyri-nizami əsgər var idi.

Hərbi aviasiyanın inkişaf etdirilməsi ilə bağlı Cümhuriyyətin Hərbi Nazirliyinin rəhbərliyinin 1920-ci il üçün çox böyük planları var idi. Digər qoşun növlərində olduğu kimi, hərbi aviasiyanın da maddi-texniki bazasının möhkəmləndirilməsi nəzərdə tutulmuşdu. Milli kadrlara olan ehtiyacın aradan qaldırılması üçün isə Hərbi Nazirliyin rəhbərliyi Azərbaycanda Hərbi Təyyarəçilik Məktəbi açmağı qərara almışdı. Bu məktəbdə təlim və təhsilin təşkili üçün xarici mütəxəssislərin cəlb edilməsi nəzərdə tutulmuşdu. Bu məsələ ilə bağlı Hərbi nazir Səməd bəy Mehmandarov 1919-cu il noyabrın 27-də Xarici İşlər Nazirliyinə müraciət etdi və nazirliyə göndərdiyi məktubunda Hərbi Təyyarəçilər Məktəbinin açılması üçün İngiltərə və İtaliyadan hərbi aviasiya mütəxəssislərinin gətirilməsinə ehtiyac olduğunu bildirdi.

Hərbi Hava Qüvvələrinin formalaşdırılması üçün Hərbi Nazirliyin rəhbərliyi 1920-ci ildə 12 ədəd hidroplanın və 6 ədəd aeroplanın əldə edilib Azərbaycana gətirilməsini də nəzərdə tuturdu. Lakin 1920-ci ilin yanvarından etibarən Azərbaycanda hərbi-siyasi şəraitin mürəkkəbləşməsi və 1920-ci ilin aprelində Cümhuriyyətin süqutu milli hərbi hava qüvvələrinin formalaşmasının başa çatdırılmasına imkan vermədi.

*Heç kim unudulmur*

# Ramiz tarixdə də, yaddaşlarda da yaşayır

Yaxından tanıdığın adamın yoxluğundan danışmaq şəhidlər haqqında danışmaq qədər ağırdı. Yaxından tanıdığın adam şəhiddirsə, hər xatırlayanda qana dönən ürəyin "ölümsüz ömür olduğu üçün şəhid ömrü ömürlərdə yaşayır" qənaəti dünyəvi təsəlliyə dönür. 27 ildi Ramiz Mürvət oğlu Hüseynov da belə xatırlanır...

Ömür payını Vətən üçün yaşayanları həmişə ehtiramla xatırlayırıq, həyatın fəlsəfəsini onda daha duyğusallıqla dərk edirik. Onu da dərk edirik ki, belə xatırlama mənəvi borcu ödəməkdir.

Zəngəzurda - Ermənistanda, Qafan rayonunda yaşayırdılar. Ermənilik quduzlaşanda onlar da Azərbaycana pənah gətirdilər. Lökbatanda məskunlaşdılar.

Uşaqlığında da, yeniyetməliyində də böyüklərin söhbətlərini həvəslə dinləyərdi Ramiz. Belə söhbətlərdən öyrəndikləri onun düşüncələrini hərdən daşdırır, hərdən titrədir, hərdən də kükrədirdi. Xalq kəlməsini, millət kəlməsini elə o vaxtlar dərk etmişdi. Onu da dərk etmişdi ki, yadlar əhatəsində milli adət-ənənələri, milli xarakteri qorumaq nə qədər çətin olsa da, gərəklidir. Bunu bacarmalısan. Bacarmasan, kimsə sənə oğul deməyəcək, insafın varsa, onda özün öz ömründən utanacaqsan. Bu dünyagörüşlə yaşamışdı illərini. Lökbatanda da bu əqidəylə oxuyurdu, yaşayırdı. Ermənilərin torpaq iddiası elan edilmədən başlayan müharibəyə səbəb oldu.

18 yaşlı gənc müharibənin ağrı-acılarını yaşayan məmləkətin əsgəri oldu.

1992-ci il idi. Əsgər Ramiz Hüseynovun xidmət etdiyi batalyon Qubadlı, Laçın istiqamətində ermənilərin həmlələrinin, hücumlarının qarşısını alırdı. Neçə ağır döyüşdə iştirak etmişdi Ramiz. Komandirləri də, əsgər yoldaşları da onu belə



tanımışdı: qorxubilməz, igid, cəsarətli əsgər idi. Neçə-neçə yaralını döyüşün içindən Ramiz çıxardıb...

1993-cü ilin yayı idi. Ermənilərin bu istiqamətlərdə həmlələri, hücumları intensivləşmişdi. Vəziyyət getdikcə gərginləşirdi.

Avqustun 21-i ermənilər Gorus istiqamətindən böyük qüvvə ilə həmlə etmişdi. Ağır döyüşlər gedirdi. Ramizin xidmət etdiyi bölük də mərdliklə döyüşürdü. Döyüşənlərin sayı da bərabər deyildi, döyüş ruhu da. İşğalçılar torpaqsevərlərin Vətən sevgisi qarşısında duruş gətirə bilmədi, xeyli itki verərək geri çəkildi...

Bilirdilər ki, bu geri çəkilmə müvəqqətidi; sayıqlıqla qoruyurdular torpağı. Hər qarış torpağı Vətən bilib qoruyurdular...

Avqustun 8-nə kimi ermənilərin nə həmləsi oldu, nə də hücumu. Son məğlubiyyət düşmənin cəsarətini üşütmüşdü. Bu qələbə əsgərlərin döyüş əzmini, qələbə ruhunu kükrətmişdi, hər birinin ruhunun "Ruhani"siydi elə bil. Bu qədər çəkən sükutdan sonra nəsə olacağını bilirdilər. Həmlənin, yaxud hücumun hansı səmtdən olacağını ancaq güman edə bilərdilər. Bu güman müdafiənin bütün istiqamətlərdə ciddiliyinin təmin olunmasını tələb edirdi. Bu haqda komandirlər əsgərlərlə ciddi söhbət etmiş, zabitlərə müdafiənin möhkəmləndirilməsini ciddi tapşırmışdılar. Bunlar olduqca gərəkli ehtiyat tədbirləri idi...

Avqustun 28-i idi.

Düşmən qəflətən Gorus tərəfdən hücum etdi...

Ağır döyüş gedirdi. Ramiz də mərdliklə vuruşurdu... Qəflətən yaralandı. Şəhid oldu...

Əsgər Ramiz Hüseynov şəhid oldu...

Yaşasaydı, 45 yaşı olacaqdı; şəhidlər şəhid olduğu yaşda anılır. 19 yaşlı Ramiz Mürvət oğlu tarixdə də, yaddaşlarda da belə yaşayır. Həmişə belə anılacaq. İgid əsgər kimi, vətənsevər kimi xatırlanacaq.

**Bayram MƏMMƏDOV,
ehtiyatda olan
polkovnik-leytenant,
əməkdar müəllim**

AZƏRBAYCAN ORDUSU

# Şəhidlərin xatirəsinə həsr olunan idman yarışı keçirilib



*Xocavənd rayonundakı "AREA" idman kompleksində hərbi birliyin tabeçiliyində olan hərbi hissələr arasında güləşin yunan-Roma və sərbəst növləri, eləcə də cüdo üzrə idman yarışları keçirilib.*

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, hərbi hissələrin şəxsi heyətinin qatıldığı tədbirdə general-mayor Mayis Bərxudarov, Xocavənd rayonu İcra Hakimiyyətinin başçısı Eyvaz Hüseynov və ictimaiyyətin nümayəndələri iştirak ediblər.

Əvvəlcə ümummilli lider Heydər Əliyevin və Vətənimizin azadlığı uğrunda şəhid olmuş soydaşlarımızın xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Dövlət himni səsləndirilib.

Çıxış edənlər şəhidlik zirvəsinin müqəddəsliyindən, fiziki hazırlığın döyüş hazırlığının əsas tərkib hissəsi olduğundan, keçirilən bu kimi idman yarışlarının mühüm əhəmiyyətindən danışaraq iştirakçılara uğurlar arzulayıblar.



# Fiziki güc döyüş qabiliyyəti üçündür

Əsgər Elşad Amanov hərbi hissəyə gəldiyi ilk gündən bacarığı ilə seçilib, əsgər yoldaşlarının və komandirlərinin böyük hörmət və rəğbətini qazanıb. Xidmətinə böyük məsuliyyətlə yanaşır. O, vəzifəsinin öhdəsindən uğurla gəlir, xidmətini düzgün təşkil edir, torpaqlarımızın keşiyində ayıq-sayıq dayanır. Elşad ordu sıralarına çağırılana qədər bir çox mötəbər idman yarışlarında iştirak edib, uğurlar qazanıb.

- Hələ kiçik yaşlarımdan idmanın əlbəyaxa döyüş növünə böyük marağım var idi, - deyə əsgər bildirdi. - Orta məktəbdə oxuyanda da idmanla məşğul olurdum. Televiziya kanallarında yayımlanan əlbəyaxa döyüş növləri üzrə yarışları həvəslə seyr edirdim. Bu arzu, bu istək, bu həvəs məni məşq meydançasına gətirdi. Beləcə, dərsdən sonra idman zalına gəlir, əlbəyaxa döyüş növlərinin sirlərini dərindən öyrənirdim. Məşqçimiz çox tələbkar idi. Çalışırdı ki, bizi yarışlara yaxşı hazırlasın. Bir müddət məşq etdikdən sonra fəallığımı, bacarığımı və iradəmi nəzərə alan məşqçi məni də gənclərarası keçirilən əlbəyaxa döyüş üzrə Bakı birinciliyinə apardı. Sözün düzü, çox həyəcanlı idim. Qarşılaşacağım rəqibləri özümdən üstün hesab edirdim. Çünki heç bir zaman rəqibi özündən zəif hesab etmək olmaz. Nəhayət, yarış başladı. Həyəcanlı olduğumu görən məşqçimiz mənə ürək-dirək verərək dedi ki, Elşad, narahat olma, mən sənə inanıram, sən qalib gələcəksən. Hər kəs birinci dəfə həyəcanlı olur. Özünü ələ al, özünə güvən, sənin hazırlığın yüksəkdir. Sən mütləq qalib gələcəksən. O sözlərdən sonra sanki mənə yenidən bir güc, bir inam gəldi.

Elşad söhbətinə davam edərək dedi ki, məşqçinin mənə belə ürək-dirək verməsi və xoş sözləri həyəcanımı azaltdı. "Döyüş zamanı heç bir həyəcan hiss etmirdim. Qarşılaşdığım ilk idmançıya qalib gəldim. Sonra digər rəqiblərimi də üstələdim. Keçirilən ilk yarışımı qalib kimi başa vurdum. Çox sevincli idim. Çünki inana bilməzdim ki, ilk yarışda belə nailiyyət əldə edim. Əsas odur ki, buna nail oldum. Məşqçimiz necə həvəslə, ürəklə döyüşdüyümü gördükdən sonra mənə qarşı diqqətini bir az da artırdı. Bütün yarışlarda uğurla çıxış edirdim. Sonra məşqçimiz mənə respublika birinciliyində iştirak edəcəyimi bildirdi. Bu sözlərdən sonra yarışın qalibi olacağımı qarşıma məqsəd qoydum. Məşqlərimi daha da artırdım. Nəhayət, müntəzəm və gərgin məşqlərdən sonra həm məqsədimə nail oldum, həm də məşqçimizin etimadını doğruldaraq, respublika birinciliyinin qalibi oldum. Özümə inamım gündən-günə daha da artırdı. Rusiyada keçiriləcək beynəlxalq yarışa qatılmağa nail oldum. Yarış çox çətin keçdi. Gərgin mübarizə bir neçə gün davam etdi. Hər dəfə rinqə çıxanda Rusiyada yaşayan həmyerlilərimizin dəstəyi məni qələbəyə daha da ruhlandırırdı. Yarışı ikinci yerdə başa vurdum. Birinci yeri də həmyerlimiz qazandı. Dövlət himnimizin həmin yarışda səsləndirilməsi, hər kəsin ayağa qalxması məni çox qürurlandırdı. Hər zaman çalışacağam ki, respublikamızın himnini digər ölkələrdə səsləndirim və dövlət bayrağımızı yüksəklərdə dalğalandırım.



Əsgər Elşad Amanov söhbətinə davam edərək dedi ki, hərbi hissədə məşq etmək, fiziki hazırlığını artırmaq üçün müasir tələblərə cavab verən idman şəhərciyi inşa edilib. "Həm asudə vaxtlarımda, həm də günün nizam qaydasına uyğun olaraq keçirilən fiziki hazırlıq məşğələlərində daim komandirlərimizin nəzarəti altında məşqlər edir, fiziki hazırlığımı artırıram. Çalışıram ki, illərlə məşq edib əldə etdiyim formanı itirməyim. Ordu sıralarından tərxis olduqdan sonra idman karyeramı davam etdirəcəyəm. Arzum daha çox beynəlxalq yarışlara qatılmaq və ölkəmizin idman şərəfini beynəlxalq turnirlərdə layiqincə qorumaqdır. Bu mənim arzumdur və inanıram ki, arzuma çatacağam.

Bugün mən əsgərəm. Əsgər kimi ən böyük arzum işğal altında olan torpaqlarımızı azad edənlərin sırasında olmaqdır."

**Baş leytenant**
**Orxan HÜSEYNLİ,**
**"Azərbaycan Ordusu"**

# İdman

## Karateçilərimiz Avropa çempionatını 4 qızıl və 1 bürünc medalla başa vurub



Danimarkanın Aalborq şəhərində 14-15 yaşlı yeniyetmələr və 16-17 yaşlı gənclər arasında 46-cı, 21 yaşadək gənclər arasında isə 11-ci Avropa çempionatı başa çatıb.

Yarışların son günü daha bir karateçimiz qızıl medal qazanıb. Son qitə çempionatlarında bir-birinin ardınca iki bürünc medal qazanan Murad Hacızadə (kumite +84 kiloqram, şəxsi məşqçisi Rafael Məmmədov, milli komanda məşqçisi Anar Allahverdiyev) 21 yaşadək gənclər arasında Avropa çempionu olub. Dörd görüşdə rəqibə xal verməyən M.Hacızadənin qələbəsi ümumi komanda sıralamasında geriləyən Azərbaycan karateçilərini 4-cü pilləyə yüksəldib.

Yarışın əvvəlki günləri Roman Heydərov (21 yaşadək gənclər, kata), Əminağa Quliyev (16-17 yaşlı gənclər, -61 kiloqram), Tale Yaqubov (14-15 yaşlı yeniyetmələr, kumite) qızıl medala, Hüseyn Məmmədli (14-15 yaşlı yeniyetmələr, kumite) isə bürünc medala sahib olub. Emil Güləhmədov (21 yaşadək gənclər, 84 kiloqram) bürünc medal uğrunda həlledici görüşdə, Osman Osmanlı isə yarımfinalda (14-15 yaşlı yeniyetmələr, +70 kiloqram) hakimin qərəzli mövqeyinə görə mükafatsız qalıb. Daha bir idmançımız İsmayıl Məhəbbətli (14-15 yaşlı yeniyetmələr, kumite, -70 kiloqram) təsselliverici görüşlərə qatılsa da, üçüncülük şansını əldən verib.

## Cüdoçularımız "Böyük dəbilqə"də medallar qazanıb



Fransanın paytaxtı Parisdə keçirilən "Böyük dəbilqə" turnirində cüdo komandamız 1 gümüş və 1 bürünc medal qazanıb.

11 kişi və 6 qadın cüdoçu ilə təmsil olunan komandamızın aktivinə gümüş medalı İrina Kindzerska yazdırıb. Birinci mərhələdə kamerunlu Vanessa Mballa və rusiyalı Ksenya Çibisova üzərində qələbə qazanan cüdoçumuz yarımfinalda yaponiyalı Akira Soneni məğlub edib. Qızıl medal uğrunda yarışda kubalı İdalis Ortisə uduzub. Bürünc medalı isə +100 kiloqram çəki dərəcəsində Uşangi Kokauri qazanıb. Tatami ustamız döyüşdə İsrail təmsilçisi Ora Sasonu məğlub edib.

## Azərbaycanlı atlet Fransada keçirilən beynəlxalq turnirin qalibi olub



Azərbaycanlı atlet Nazim Babayev Fransanın Metz şəhərində keçirilən beynəlxalq elit turnirin qalibi adını qazanıb.

Turnirdə N.Babayev üçtəkanla tullanma yarışında 16,67 metr nəticə ilə birinci yeri tutub. O, bu nəticə ilə fransalı atlet Mamadu Dia Çerif (16,09 metr) və belaruslu Dimitri Platinskini (15,87 metr) qabaqlayıb.

**AZƏRTAC-ın materialları əsasında**

Kapitan Qaraxanov Rəşad Təzəxan oğluna 2007-ci ildə verilmiş zabitin şəxsi vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Baş leytenant Babaşov Taleh Məmmədəli oğluna verilmiş zabitin şəxsi vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

**Baş redaktor**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
baş leytenant
Orxan HÜSEYNLİ

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti mod.gov.az saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 143
Nüsxə 3950